| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 10.04.2020 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 137 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və ehtiyat hissələrinin komisyon satışı qaydaları haqqında" 1995-ci il 14 mart tarixli 58 nömrəli, "Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin satılması Qaydalarının təsdiq edilməsi haqqında" 2005-ci il 29 noyabr tarixli 221 nömrəli, "Sort müəllifinə və patent sahibinə toxumdan istifadəyə görə mükafatın və haqqın ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2006-cı il 9 fevral tarixli 41 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 7 mart tarixli 65 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 23 yanvar tarixli 11 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 30 yanvar tarixli 19 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 16 aprel tarixli 66 nömrəli, "Azərbaycan Respublikasında damazlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2008-ci il 19 avqust tarixli 190 nömrəli, "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə" 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2014-cü il 30 dekabr tarixli 408 nömrəli Qərarının ləğv edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 14-04-2020, Nəşr Nömrəsi: 69), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2020, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 484) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 14.04.2020 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 150.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14202004100137 |

| | |
|---|---|
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **16.04.2020** |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və ehtiyat hissələrinin komisyon satışı qaydaları haqqında" 1995-ci il 14 mart tarixli 58 nömrəli, "Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin satılması Qaydalarının təsdiq edilməsi haqqında" 2005-ci il 29 noyabr tarixli 221 nömrəli, "Sort müəllifinə və patent sahibinə toxumdan istifadəyə görə mükafatın və haqqın ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2006-cı il 9 fevral tarixli 41 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 7 mart tarixli 65 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 23 yanvar tarixli 11 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 30 yanvar tarixli 19 nömrəli, "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 16 aprel tarixli 66 nömrəli, "Azərbaycan Respublikasında damazlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2008-ci il 19 avqust tarixli 190 nömrəli, "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə" 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2014-cü il 30 dekabr tarixli 408 nömrəli Qərarının ləğv edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanının 4-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 14 mart tarixli 58 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və onlar üçün ehtiyat hissələrinin komisyon satışı Qaydaları"na aşağıdakı məzmunda 4.15-ci bənd əlavə edilsin:

"4.15. Kənd təsərrüfatı texnikasının alınması, hüquqi və fiziki şəxslərə satılması və bu zaman həyata keçirilən ödənişlər barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 29 noyabr tarixli 221 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 11, maddə 1077; 2007, 2, maddə 192; 2010, 3, maddə 257) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına alınan pestisidlərin satılması Qaydaları"na aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

"7. Pestisidlərin alınması, onların hüquqi və fiziki şəxslərə satılması və bu zaman həyata keçirilən ödənişlər barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 2, maddə 189) ilə təsdiq edilmiş "Sort müəllifinə və patent sahibinə toxumdan istifadəyə görə mükafatın və haqqın ödənilməsi Qaydası"nın 4-cü hissəsinin birinci abzasına aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bağlanılmış lisenziya müqavilələri barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 3, maddə 293; 2009, 1, maddə 34; 2014, 7, maddə 934; 2015, 1, maddə 64, 2, maddə 227; 2018, 9, maddə 1937, 12 (II kitab), maddə 2721; 2019, 5, maddə 972, 7, maddə 1340) ilə təsdiq edilmiş "Baytarlıq preparatlarının ehtiyatının yaradılması, saxlanması və istifadəsi Qaydaları"nın III hissəsinə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Baytarlıq preparatlarından istifadə etməklə həyata keçirilən heyvanların müayinəsi, müalicəsi və heyvan xəstəliklərinin profilaktikası barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

5. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 11 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 1, maddə 55; 2009, 1, maddə 34; 2015, 2, maddə 227; 2018, 12 (II kitab), maddə 2721) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş "Heyvanların planlı profilaktik və ya məcburi peyvənd edilməsi, heyvan xəstəliklərinin baş verməsinin və yayılmasının qarşısının alınması, xəstəlikləri ləğv etmək üçün epizootiya mənbələrində və qeyri-sağlam məntəqələrdə, heyvandarlıq binalarında, onların ərazilərində, nəqliyyatda və digər yerlərdə dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılması Qaydası"na aşağıdakı məzmunda 2.12-ci bənd əlavə edilsin:

"2.12. Heyvanların müayinəsi, müalicəsi və heyvan xəstəliklərinin profilaktikası barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.";

5.2. həmin Qərarla təsdiq edilmiş "Baytarlıq tədbirlərinin təşkili və həyata keçirilməsi Qaydaları"na aşağıdakı məzmunda 4.9-cu bənd əlavə edilsin:

"4.9. Heyvanların müayinəsi, müalicəsi və heyvan xəstəliklərinin profilaktikası barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 1, maddə 63; 2008, 7, maddə 673; 2015, 2, maddə 227; 2018, 12 (II kitab), maddə 2721) ilə təsdiq edilmiş "Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət edilməsi və bu məqsədlə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsinin aparılması Qaydaları"na aşağıdakı məzmunda 1.7-ci bənd əlavə edilsin:

"1.7. Kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsi üçün istifadə edilən məlumat və göstəricilər Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 4, maddə 392; 2008, 1, maddə 39, 2, maddə 116, 5, maddə 448, 7, maddə 673; 2010, 2, maddə 148; 2014, 7, maddə 940; 2015, 2, maddə 227; 2018, 12 (II kitab), maddə 2721; 2019, 9, maddə 1563) ilə təsdiq edilmiş "Bir sıra karantin və xüsusi təhlükəli yoluxucu xəstəliklər baş verdikdə, həmin xəstəliklərin ləğv edilməsi zamanı hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın əvəzinin ödənilməsi Qaydaları"na aşağıdakı məzmunda 4.6-cı bənd əlavə edilsin:

"4.6. Karantin və xüsusi təhlükəli yoluxucu xəstəliklərə yoluxmuş heyvanların müayinəsi, müalicəsi və belə heyvan xəstəliklərinin profilaktikası barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

8. "Azərbaycan Respublikasında damazlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 avqust tarixli 190 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 8, maddə 785; 2015, 2, maddə 227; 2017, 9, maddə 1737; 2019, 5, maddə 972) aşağıdakı dəyişikliklər edilsin:

8.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında yetişdirilən heyvanların cins tərkibinin, habelə damazlıq pasportu (şəhadətnaməsi) olan cins heyvanların sayının müəyyən edilməsi və uçotunun aparılması Qaydaları"na aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Damazlıq heyvanlar barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

8.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında yeni yaradılan heyvan cinslərinin seleksiya nailiyyəti kimi qeydə alınması və patentləşdirilməsi, həmin heyvanların sınağının aparılması Qaydaları, seleksiya nailiyyətinə olan tələblər və şərtlər"ə aşağıdakı məzmunda 4.15-ci bənd əlavə edilsin:

"4.15. Seleksiya nailiyyətlərindən istifadə üçün bağlanılmış lisenziya müqavilələri barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

9. "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 9, maddə 872; 2013, 7, maddə 881; 2015, 2, maddə 227; 2016, 1, maddə 168; 2017, 7, maddə 1476; 2019, 3, maddə 547, 5, maddə 972, 12, maddə 2077) aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən tətbiq olunan güzəştlər barədə məlumatlar Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"yə uyğun olaraq, "Elektron kənd təsərrüfatı" informasiya sisteminə daxil edilir.".

10. "Elektron kənd təsərrüfatı" informasiya sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 408 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 12, maddə 1682; 2015, 11, maddə 1416; 2016, 6, maddə 1217; 2017, 10, maddə 1927; 2018, 1, maddə 139; 2019, 12, maddə 2098) ləğv edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 10 aprel 2020-ci il
137